**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.84**

**NURAY MƏMMƏDLİ**

# NAXÇIVANIN ORTA TUNC DÖVRÜ BOYALI QABLAR MƏDƏNİYYƏTİ

*Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin Cənubi Qafqaz və Azərbaycanda əsas mərkəzlərindən biri Naxçıvandır. Bu mədəniyyət Naxçıvanda yaşayış yerləri və qəbir abidələri əsasında öyrənilmişdir. Naxçıvanın aydın stratiqrafiyaya malik abidələri I Kültəpə, II Kültəpə, Qızqalası Orta Tunc dövrünün bütün mərhələlərini ardıcıllıqla izləməyə imkan vermişdir. Abidələrin tədqiqi nəticəsində Naxçıvanda Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin fasiləsiz davam etdiyi, monoxrom və polixrom boyalı qabların geniş yayıldığı aydın olmuşdur. Azərbaycan, Cənubi Qafqaz, Urmiya hövzəsi və Şərqi Anadolunun Orta Tunc dövrü abidələrindən məlum olan arxeoloji materialların bənzərlərinə Naxçıvan abidələrində rast gəlinməsi bu abidələrin eyni mədəniyyətə aid olduğunu deməyə əsas verir. Orta Tunc dövrü mədəniyyətinin ilk harada yaranıb yayılmağı haqqında müxtəlif fikirlər olsa da, Naxçıvan bu mədəniyyətin mərkəzlərindən biri olmuşdur.*

**Açar sözlər:** *Naxçıvan, Orta Tunc dövrü, yaşayış yeri, qəbir abidələri, boyalı keramika məmulatı.*

**Giriş.** 1895-ci ildə Naxçıvan şəhərindən 17-18 km cənub-şərqdə, Araz çayının sol sahilində yerləşən Qızılburun nekropolunun aşkar olunması ilə Naxçıvanda Orta Tunc dövrünün tədqiqinə başlanıldı. Bu tədqiqat özü ilə mübahisəli və fərqli fikirləri, həll olunmamış problemləri gətirdi. Rus alimlərindən N.V.Fyodorov, İ.İ.Meşşaninov və A.A.Miller Qızılburun nekropolunda qazıntı işləri aparmışdır. N.V.Fyodorov, A.A.Miller və İ.İ.Meşşaninovun tədqiq etdiyi dağıdılmış qəbirlər nekropoldakı qəbirlərin dəfn adəti və dövrü haqqında müxtəlif fikirlərin yaranmasına səbəb olmuşdur. Buna baxmayaraq nekropol arxeoloqların diqqətini cəlb etmişdir. Nekropolun Orta Tunc dövrünə aid materiallarını V.H.Əliyev e.ə II minilliyin ikinci rübünə və sonuna aid etmişdir [6, s. 34]. Bu tapıntılar içərisində ən maraqlısı şübhəsiz ki, boyalı qablardır. Monoxrom (şəkil 1) və polixrom (şəkil 2) boyalı qablardan ibarət olan keramika məmulatı üçün xarakterik ornamentlər əsasən torlu üçbucaqlar və romblardır. Boyalı qablardan biri üzərində üçbucaqlar arasında çəkilmiş geyimli kişi və qadın təsviri isə ən diqqətəlayiq təsvirlərdəndir. Orta Tunc dövrünə aid bu keramika məmulatları boyalı qablar mədəniyyətinin ikinci mərhələsinə aiddir [9, s. 41]. Qızılburundan əldə edilən digər maraqlı tapıntı gildən hazırlanmış kişi fiqurudur. Azərbaycanın digər qədim fiqurlarından fərqli olaraq realistik şəkildə hazırlanmış bu fiqurun içərisi boşdur. Kişi fiqurunun bir üstünlüyü də paltarlı olmasıdır. Fiqurun geyiminin Azərbaycan xalq geyimləri ilə olan uyğunluğu onu göstərir ki, bu tip geyimlərin mənşəyi Orta Tunc dövrünə aiddir [6, s. 61-62; 7, s. 49-51]. Qızılburun nekropolu Naxçıvan ərazisində aşkar olunmuş Orta Tunc dövrünə aid ilk abidə olduğundan arxeoloqların diqqətini cəlb etmiş, uzun müddət digər abidələrin dövrləşdirilməsində bu materiallardan istifadə edilmişdir.

**Orta Tunc dövrü mədəniyyəti**. Qızılburun nekropolundan sonra aşkar olunmuş növbəti abidə I Kültəpə yaşayış yeri olmuşdur. I Kültəpə yaşayış yeri Naxçıvan şəhərindən 8 km şimal-şərqdə, Naxçıvan çayının sol sahilində, indiki Kültəpə kəndi ərazisində yerləşir. Burada 1951-1964-cü illərdə O.Həbibullayev tərəfindən arxeoloji qazıntılar aparılmışdır. Abidənin ən alt təbəqəsi Enolit dövrü hesab edilirdi. Lakin müstəqillik illərində aparılmış arxeoloji qazıntılar nəticəsində bu abidə artıq Neolit dövrü ilə tarixləndirilir [4, s. 13]. Yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi 2 metr qalınlığındadır. Bu təbəqədən Orta Tunc dövrünə aid monoxrom, polixrom naxışlı qablar əldə edilmişdir.

Azərbaycanda ən möhtəşəm çoxtəbəqəli yaşayış yerlərindən biri olan II Kültəpə tədqiqatçıların hər zaman diqqət mərkəzindədir. 1960-cı ildə aşkar olunan bu abidə Naxçıvan şəhərinin 12 km şimalında, Yuxarı Uzunoba və Didivar kəndləri yanında, Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə yerləşir [2, s. 77]. Abidənin tədqiqi müstəqillik illərində də davam etdirilmişdir. Yaşayış yerində aparılan arxeoloji qazıntılar nəticəsində Orta Tunc dövrünə aid 4,5 m qalınlığında mədəni təbəqə

aşkar olunmuşdur. Təbəqədən qala divarları, yaşayış binaları, təsərrüfat tikintiləri, dulus emalatxanasının qalıqları, zəngin maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Aşkar olunmuş möhtəşəm müdafiə divarları və onun daxili strukturu II Kültəpənin ilkin şəhər olmasını göstərir. Yaşayış yerində aşkar olunmuş dulus emalatxanasının qalıqları bu yaşayış yerinin boyalı keramika məmulatının əsas istehsal mərkəzlərindən biri olduğunu göstərir. Boyalı qabların çoxluğu, müxtəlif növə və yüksək keyfiyyətə malik olması II Kültəpənin həmdövr abidələri içərisində seçilməsinin səbəbidir. II Kültəpənin Orta Tunc dövrü təbəqəsinin stratiqrafiyası Azərbaycan və Cənubi Qafqaz boyalı qablarının dövrləşdirilməsində indi də etalon rolunu oynayır.




**Şəkil 1.** Orta Tunc dövrünün monoxrom boyalı keramikası (V.Baxşəliyev).

Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra tədqiq olunmuş abidələrdən biri də Qızqala yaşayış yeri və kurqanlarıdır. Bu abidələr Orta Tunc dövrü mədəniyyətinə aid yeni məlumatlar vermişdir. Qızqala yaşayış yeri Şərur rayonunun Aşağı Yaycı kəndinin cənub-qərbində, Uzunqaya dağ silsiləsinin Arpaçaya endiyi yerdə yerləşir. Qızqalası kurqanları isə Arpaçayın sağ və sol sahilində çox geniş əraziyə yayılmışdır. Yaşayış yerində arxeoloji qazıntılara 2014-cü ildə V.Baxşəliyevin rəhbərliyi ilə amerika arxeoloqları Lauren Ristvet, Hilary Gopniklə birlikdə başlanılmışdır. Ərazisi 13 hektar sahəni əhatə edən abidənin arxeoloji qazıntısı zamanı iki müdafiə divarı aşkar olunmuşdur. Müdafiə divarlarının birindən götürülmüş kömür nümunəsinin analizi e.ə. 2135-ci ili göstərmişdir [5, s. 23-30].

Yaşayış yerinin 4 m qalınlığında mədəni təbəqəsinin olması Orta Tunc dövrünün bir neçə mərhələsini ardıcıllıqla izləməyə imkan verir. Yaşayış yerinin ətrafındakı kurqanlarla birlikdə tədqiq edilməsi abidənin kompleks şəkildə öyrənilməsinə imkan vermişdir. Həm yaşayış yerinin bir neçə qazıntı sahəsindən, həm də kurqanlardan götürülən karbon analizləri nəticələri Orta Tunc dövrü mədəniyyətinin dövrləşdirilməsində əhəmiyyətli olmuşdur.



**Şəkil 2.** Qızılburun. Polixrom boyalı keramika (V.Baxşəliyev).

Naxçıvanın digər Orta Tunc dövrü abidələri də bu mədəniyyətin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Bu abidələr Orta Tunc dövrü mədəniyyətinin səciyyəvi cəhətlərini özlərində əks etdirsələr də lokal xüsusiyyətlərə də malikdir. Yaycı nekropolunun boyalı keramika məmulatı və heyvan təsvirli uzunboğaz küpələri öz orijinallığı ilə fərqlənir. Yaycıdan aşkar olunmuş uzunboğazlı, qabarıq gövdəli küpələrin xarici səthi tünd qırmızı anqobla örtülərək qara rənglə, həndəsi motivdə naxışlanmışdır. Küpələrdən birinin boğazı qrup halında yerləşdirilmiş şaquli istiqamətli düz və dalğalı xətlərlə, gövdəsi isə bir-birinin ardınca yerləşdirilmiş iki sıra heyvan rəsmləri ilə naxışlanmışdır. Orta Tunc dövrünə aid Şahtaxtı boyalı keramika məmulatı sadə həndəsi motivli monoxrom və polixrom boyalı qabları ilə, Nəhəcir, Çalxanqala, Şortəpə daha zəngin naxışlanmış boyalı qabları ilə seçilir. Ornamental motivlərin çoxluğu Naxçıvanda müxtəlif istehsal mərkəzlərinin olduğunu göstərir [3, s. 72-73].

Naxçıvanın aydın stratiqrafiyaya malik abidələri Orta Tunc dövrünün bütün mərhələlərini ardıcıllıqla izləməyə imkan vermişdir. Azərbaycan, Cənubi Qafqaz, Urmiya hövzəsi və Şərqi Anadolunun Orta Tunc dövrü abidələrindən məlum olan arxeoloji materialların bənzərlərinə Naxçıvan abidələrində rast gəlinməsi bu abidələrin eyni mədəniyyətə aid olduğunu deməyə əsas verir. Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların uzun illər lokal xüsusiyyətləri əsas götürülərək arxeoloji ədəbiyyatda Van-Urmiya boyalıları, "Trialeti mədəniyyəti", "Təzəkənd mədəniyyəti", "Qızılburun mədəniyyəti", "Naxçıvan mədəniyyəti", "Sevan-Üzərliktəpə mədəniyyəti" kimi adlandırılmışdır [3, s. 83]. Lakin araşdırmalar bu mədəniyyətin əsas mərkəzinin Naxçıvan olduğunu göstərir (şəkil 3).

Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin dövrləşdirilməsində Urmiya hövzəsində yerləşən Göytəpə, Haftavantəpə, Naxçıvanda I Kültəpə, II Kültəpə yaşayış yerləri əsas götürülmüşdür. O.H.Həbibullayev I Kültəpənin, V.H.Əliyev II Kültəpənin stratiqrafiyasına əsasən Orta Tunc dövrünün boyalı qablarını dörd mərhələyə bölmüşlər. Son illər aşkar olunmuş yeni abidələrə əsasən arxeoloqlar ən azından bir neçə ara mərhələnin olduğunu qeyd edirlər [8, s. 176]. Bu günə kimi Naxçıvanın Orta Tunc dövrü abidələrindən yalnız II Kültəpənin polixrom boyalı keramika məmulatı tapılan təbəqəsindən götürülmüş e. ə. 1800-cü ili göstərən kömür analizinin nəticələri var idi.

Urmiya hövzəsi abidələrindən Göytəpə yaşayış yerinin Orta Tunc dövrünə aid D təbəqəsi B.Braun tərəfindən e. ə. 2400-2000-ci illərə, C təbəqəsi e. ə. II minilliyin birinci yarısına, Haftavantəpənin VI C təbəqəsi C-14 tarixlənməsinə əsasən e.ə. 2200-2000-ci, erkən VI B təbəqəsi e. ə. 1900-1550-ci, son VI B təbəqəsi isə e. ə. 1600-1450-ci illərə aid edilmişdir [1, s. 173 . Bugün Qızqala və II Kültəpə yaşayış yerindən götürülən karbon nümunələrin analizinin nəticələrinə əsasən Naxçıvanda Orta Tunc dövrünün e. ə. III minilliyin ikinci yarısında formalaşdığını Urmiya hövzəsi abidələri ilə həmdövr olduğunu deyə bilərik.




**Şəkil 3.** Orta Tunc dövrü boyalı keramikasının yayılma arealı (V.Baxşəliyev).

**Nəticə.** Abidələrin tədqiqi nəticəsində Naxçıvanda Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin fasiləsiz davam etdiyi, monoxrom və polixrom boyalı qabların geniş yayıldığı aydın olmuşdur. Ətrafı müdafiə divarları ilə əhatə olunmuş yaşayış yerləri onu göstərir ki, sosial təbəqələşmə nəticəsində iri tayfa ittifaqları yaranmış, mühafizə olunmağa ehtiyac duyulmuş, ilkin şəhərlər meydana gəlmişdir. Orta Tunc dövrü mədəniyyətinin ilk dəfə harada yaranması haqqında müxtəlif fikirlər olsa da Naxçıvan bu mədəniyyətin mərkəzlərindən biri olmuşdur. Müəyyənləşdirilmişdir ki, bu mədəniyyət Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan oturaq və köçmə maldarlıqla məşğul olan tayfalar tərəfindən yaradılmışdır.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V.B. Azərbaycan Arxeologiyası. Bakı: Elm, 2007, 240 s.
2. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 301 s.
3. Baxşəliyev V.B. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
4. Baxşəliyev V.B., Marro C., Berthon R., Quliyeva Z., Sarıaltun S. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Elm və təhsil, 2017, 164 s.
5. Baxşəliyev V.B., Ristvet L., Gopnik H. Qızqalasında arxeoloji tədqiqatlar / AMEA-nın Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun 2016-cı il üçün Hesabatı. 2016, s. 23-30.
6. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 168 s.

7. İsmayılzadə Q.S., İbrahimli B.İ. Qızılburun nekropolu. Bakı: Elm və təhsil, 2013, 120 s.
8. Seyidov A.Q. Naxçıvan e. ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 339 s.
9. Belli O., Bahşaliyev V.B. Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü / Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhchivan Region. İstanbul: Arkeoloji ve Sanat, 2001, 120 s.

***Naxçıvan Dövlət Universiteti***
***Email: nuray.memmedli31@gmail.com***

**Nuray Memmedli**

**MIDDLE BRONZE AGE PAINTED POTTERY CULTURE OF NAKHCHIVAN**

One of the main centers of the Middle Bronze Age Painted Pottery Culture in the South Caucasus and Azerbaijan is Nakhchivan. This culture has been studied in Nakhchivan based on settlements and grave monuments. The monuments of Nakhchivan with clear stratigraphy, Kültepe I, Kültepe II, and Kızkale, have made it possible to follow all the stages of the Middle Bronze Age in sequence. As a result of the study of the monuments, it became clear that the Middle Bronze Age Painted Pottery Culture continued uninterruptedly in Nakhchivan, and that monochrome and polychrome painted vessels were widespread. The similarity of archaeological materials known from the Middle Bronze Age monuments of Azerbaijan, the South Caucasus, the Urmia Basin, and Eastern Anatolia to the monuments of Nakhchivan suggests that these monuments belong to the same culture. Although there are different opinions about where the Middle Bronze Age culture first emerged and spread, Nakhchivan was one of the centers of this culture.

**Keywords:** *Nakhchivan, Middle Bronze Age, settlement, grave monuments, painted pottery.*

**Нурай Меммедли**

**КУЛЬТУРА РАСПИСНОЙ КЕРАМИКИ ЭПОХИ СРЕДНЕЙ БРОНЗЫ**

Нахчыван является одним из основных центров культуры расписной керамики эпохи средней бронзы на Южном Кавказе и в Азербайджане. В Нахчыване эта культура изучалась на основе поселений и погребальных памятников. Памятники Нахчывана с четкой стратиграфией, такие как Кюльтепе I, Кюльтепе II и Гызгала позволили последовательно проследить все этапы среднего бронзового века. В результате изучения памятников стало ясно, что культура расписной керамики эпохи средней бронзы непрерывно существовала на территории Нахчывана, широкое распространение получила монохромная и полихромная расписная керамика. Тот факт, что в памятниках Нахчывана обнаружены археологические материалы, аналогичные известным из памятников эпохи средней бронзы Азербайджана, Южного Кавказа, Урмийского бассейна и Восточной Анатолии, дает основание говорить о принадлежности этих памятников к одной культуре. Несмотря на то, что существуют разные мнения о том, где впервые возникла и распространилась культура эпохи средней бронзы, Нахчыван был одним из центров этой культуры

**Ключевые слова:** *Нахчыван, средняя бронза, поселение, погребальные памятники, расписная керамика.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 22.09.2025**
**Son variant 20.10.2025**